# HƏCCIN NÖVLƏRI

<"xml encoding="UTF-8?>

HƏCCIN NÖVLƏRI

İslam həcci üç hissəyə bölünür: təməttö , ifrad və qiran.

Təməttö Məkkədən 48 mil (16 fərsəxə bərabərdir) uzaq olan şəxslərin vəzifəsidir. Qiran və ifrad həccləri isə onlardan qeyriləri üçün vacibdir.

İfrad həccinin və müfrədə ümrəsinin surətləri

Məsələ 1. Vaxtın darlığı səbəbindən təməttö ümrəsi yerinə yetirməyən şəxs gərək ifrad həcci niyyəti etsin və bununla da təməttö ümrəsi ehramının niyyətini ifrad həccinin ehramının niyyətinə dəyişməli və Ərəfata getməlidir. Məsələn, digər hacılar kimi vüquf etməli və bundan sonra Məşərə getməli və vüquf etməlidir. Sonra da Minaya getməli və Mina əməllərini yerinə yetirməlidir. Hədy əməlini isə yerinə yetirməsi vacib deyildir. Sonra Məkkəyə getməli və ziyarət təvafı, namaz, səy, nisa təvafı və nisa təvafının namazını yerinə yetirməlidir. Sonra isə ehramdan xaric olmalıdır. Sonra oradan Minaya qayıtmalı və “beytutə” üçün, təşriq günlərinin əməllərini yerinə yetirmək üçün Minaya qayıtmalı və başqa hacılar kimi bu əməlləri yerinə yetirməlidir.

İfrad həccinin surəti təməttö həcci surətindədir, yalnız bir fərqlə ki, təməttö həccində hədy vacibdir, ifrad həccində isə bu iş vacib yox, müstəhəbdir.

Məsələ 2. Təməttö həcci ifrad həccinə çevrilən şəxsin həccdən sonra yerinə yetirməsi lazım olan müfrədə ümrəsinin surəti aşağıdakı kimidir:

Hərəmdən çölə çıxaraq ən yaxın məsafədə (daha yaxşı olar ki, Cəranə, Hüdeybiyyə və ya Məkkəyə daha yaxın olan Tənimdə) ehram bağlayıb Məkkəyə

qayıtsın və təvaf edib namazını qılsın, Səfa və Mərvə arasında səy etsin, təqsir etsin, yaxud da saçını qırxsın, Nisa təvafını yerinə yetirib təvaf namazı qılsın